

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 142 (23.554)

28 avqust 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Anatoli Torkunovun 70 illik yubileyi münasibətilə Rusiyanın “Rossiya-24” və “Rossiya-1” televiziya kanallarında verilişlər yayımlanıb. Həmin verilişlərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları olan dövlət başçılarının, ictimai-siyasi xadimlərin, diplomatların nüfuzlu təhsil müəssisəsinin rektoru ilə bağlı müsahibələri göstərilib. Bu verilişlərdə Azərbaycan Respublikasının Prezidenti, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu İlham Əliyevin də müsahibəsi yayımlanıb.

Prezident İlham Əliyev müsahibəsində MDBMİ-nin ilk prezident məzunu olduğunu vurğulayıb, əmin olduğunu bildirib ki, həmin məzunlar, Anatoli Vasilyeviçin yetirmələri mənsub olduqları ölkələrin həyatında layiqli yer tutacaq, onlar arasında prezidentlərin sayı daha çox olacaq.

Dövlətimizin başçısı Anatoli Vasilyeviçi bir daha ürəkdən təbrik edərək ona ən xoş arzularını çatdırıb.



*Dövlət proqramı icra olunur*

## Muxtar respublika iqtisadiyyatının inkişafında Dövlət proqramları mühüm rol oynayır



***Sosial-iqtisadi inkişafla bağlı islahatların həyata keçirilməsi istiqamətində böyük əhəmiyyət kəsb edən məsələlərdən biri regional iqtisadi inkişafa nail olmaqdır. Dünya təcrübəsinə nəzər saldıqda görmək olar ki, ölkələrin hərtərəfli inkişafı onların regionlarının və ştatlarının bütövlükdə inkişafı ilə xarakterizə olunur. Bu baxımdan dövlətlər öz iqtisadi və sosial siyasətlərini müəyyən edərkən regionlarının sosial-iqtisadi inkişafı məsələsini əsas prioritet istiqamət kimi əldə tutur və öz inkişaf strategiyalarını bu istiqamət üzərindən həyata keçirirlər. Ölkənin rayonlarının hər birinin ayrı-ayrılıqda inkişafı olmadan ümumi sosial-iqtisadi inkişafdan da danışmaq olmaz.***

Ölkəmizdə qəbul edilən Dövlət proqramlarında regional inkişafla əlaqədar olan məsələlərdən biri də Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf xüsusiyyətləridir. Muxtar respublikamız Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi, özünəməxsus xüsusiyyətlərə və infrastruktura malik olmaqla, təbii-coğrafi şəraiti, insan kapitalı, adət-ənənələri və digər xüsusiyyətləri ilə müxtəlif ehtiyat qruplarını özündə cəmləşdirir. Diyarımızda kənd təsərrüfatının, sənayenin strukturunu möhkəmləndirmək, məşğulluq səviyyəsini yüksəltmək, əhalinin təhsil, səhiyyə və başqa sosial tələbatlarını yaxşılaşdırmaq üçün respublikamızda qəbul edilən Dövlət proqramlarına paralel olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq olunmuş və icrası uğurla başa çatmış “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)”, “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı, həmçinin “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqram” ını xüsusi olaraq qeyd etmək lazımdır.

Ümumi struktura nəzər saldıqda görə bilərik ki, bu proqramlar bir-birinin məntiqi ardıcıllığı olmaqla, davamlı iqtisadi inkişaf dinamikasını qoruyub saxlamaq və genişləndirmək məqsədini daşıyır. Ölkəmizin iqtisadi qüdrətinin artırılması, bütün sahələr üzrə tədbirlər planının genişləndirilməsi, ən kiçik problemin incəliklərinə qədər həll edilməsi həmin proqramlarda nəzərdə tutulmuşdur. Elmin, səhiyyənin, mədəniyyətin, idmanın daha da inkişaf etdirilməsi, informasiya texnologiyaları sahəsində işlərin sürətləndirilməsi, qeyri-neft sektorunun və emal sənayesinin genişləndirilməsi, müasir standartlara uyğun obyektlərin və tikililərin yenidən qurulması Dövlət proqramlarına daxil olan əsas tədbirlərdir. Əvvəlki illərdən fərqli olaraq son layihələr daha çox elmi-texniki tərəqqinin nailiyyətlərinə hesablanmışdır.

Ötən illər ərzində qəbul edilən proqramlara uyğun həyata keçirilən işləri xarakterizə etsək, onların vəzifələri, nəzərdə tutulan işlər və icra mexanizmi haqqında çox söz söyləmək mümkündür. Xüsusilə proqramların uğurlu icrası nəticəsində, sosial-iqtisadi sahələrin hər birində əhəmiyyətli dəyişikliklər qeydə alınmışdır. Keçən onilliklər ərzində burada həm hüquqi-qanunvericilik məsələləri təkmilləşdirilmiş, həm də hüquqi tədbirlərə uyğun olaraq əməli işlər daha da sürətləndirilmişdir. Muxtar respublikada, sənayenin, aqrar sektorun, turizmin, xarici ticarətin, sosial sektorun (təhsil, mədəniyyət, səhiyyə və sair) bütün sahələri üçün güclü qanunvericilik bazası yaradılmışdır. Sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmi təkmilləşdirilmiş, Sahibkarlığın İnkişafı Fondu təsis edilmiş, ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər sürətləndirilmiş, investisiyaların təşviqi ilə bağlı tədbirlər hazırlanmış, muxtar respublika məhsullarının xarici ölkələrdə tanıdılması üçün xeyli işlər görülmüşdür. Əlavə olaraq kənd təsərrüfatının ayrı-ayrı sahələri, turizm, xalçaçılıq, elektron xidmətlər, mədəniyyət, lizinq fəaliyyəti və digər sahələr üçün fərman və sərəncamlar qəbul edilmişdir.

Muxtar respublikada rabitə və telekommunikasiya sisteminin təkmilləşdirilməsi, nəqliyyat sisteminin inkişafı üçün yolların və körpülərin yenidən qurulması, əhalinin keyfiyyətli qida məhsullarına və içməli suya olan tələbatının yüksək səviyyədə təmin olunması, tarixi və mədəni abidələrin qorunması, elektrik enerjisi ilə təchizatın yaxşılaşdırılması daim diqqət mərkəzində olmuşdur. Bütün bunlar sosial-iqtisadi proqramların əsas nailiyyətləridir. Statistik məlumatlar da dediklərimizi təsdiq edir. Belə ki, ölkəmizdə və buna paralel olaraq muxtar respublikada regional sosial-iqtisadi inkişaf proqramlarının tətbiqinə başlanılan ilkin dövrlərlə son illəri müqayisə etsək, əhəmiyyətli irəliləyişlərin şahidi olarıq. 2019-cu ildə 2003-cü illə müqayisədə ümumi daxili məhsul 16,9, sənaye məhsulu 57,7, kənd təsərrüfatı məhsulu 7,06, informasiya və rabitə xidmətləri 12,08, pərakəndə əmtəə dövriyyəsi 17,3, əhaliyə göstərilmiş ödənişli xidmətlər 17,34, əsas kapitala yönəldilən vəsaitlər 16,3, orta aylıq əməkhaqqı isə 12,6 dəfə artmışdır. Bundan başqa, sosial sahələrdə də əhəmiyyətli göstəricilər qeydə alınmış, son illərin Dövlət proqramlarında ətraf mühitin qorunması, təbii resursların düzgün istifadə, yaşıllaşdırma işlərinin aparılması istiqamətində işlər uğurla davam etdirilmiş, 2 milyondan çox ağac əkilmişdir. Aqrar sahədə maarifləndirmə işlərinin aparılması, regionlarda fermerlərlə mütəmadi görüşlər, Aqrar Sığorta Fondunun təsis edilməsi, süni mayalandırma proseslərinin sürətləndirilməsi, ailə təsərrüfatlarının genişləndirilməsi, bu istiqamətdə festivalların və yarmarkaların təşkil edilməsi muxtar respublikada kənd təsərrüfatının inkişafı üçün əsas təşviqedici amillərdir.

*Son illər ərzində sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş mühüm Dövlət proqramları iqtisadi əlaqələrin inkişafı və tənzimlənməsi istiqamətində hər bir sahə üçün gələcəkdə mühüm perspektivlər yaradacaqdır. Proqramların effektivliyini yüksəltmək üçün əlavə olaraq ixracat istiqamətində lazımi potensialın formalaşdırılması, innovativ ideyaların diqqət mərkəzində saxlanılması, startap layihələrin işə salınması əldə olunan inkişafın sürətləndirilməsi və iqtisadi əlaqələrin genişləndirilməsində böyük rol oynayacaqdır.*

**Eltun İBRAHİMOV**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru*

*Sədərək Rayon İcra Hakimiyyətində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov məruzə edib.*

## Sədərək rayonunda müşavirə keçirilib



Bildirilib ki, rayon Elektrik Şəbəkəsi tərəfindən payız-qış mövsümünü problemsiz keçirmək üçün bir sıra işlər görülüb, tələb olunan mal-material və avadanlıqların ehtiyatı yaradılıb. Rayon Elektrik Şəbəkəsi bu işləri davam etdirməlidir. Elektrik təsərrüfatının təbii hadisələrə davamlılığını artırmaq üçün tədbirlər görülməlidir. Şəbəkədə noyabr ayından etibarən qəza bərpa briqadaları təşkil olunmalı, payız-qış mövsümündə işçilərin isti geyim və təhlükəsizlik avadanlıqları ilə təminatına ciddi fikir verilməlidir.

Diqqətə çatdırılıb ki, rayon Qaz İstismar İdarəsi təbii qaz yanacağı ilə əhalinin təminatını yaxşılaşdırmaq üçün qaz təchizatı sisteminə texniki baxış həyata keçirməli, mövcud nasazlıqların vaxtında aradan qaldırılmasını təmin etməlidir. İstifadə müddəti bitmiş qaz sayğaclarının dəyişdirilməsinin sürətləndirilməsi, sayğacdankənar istifadənin qarşısının alınması üçün görülən işlərin səmərəliliyi artırılmalıdır. Baş vermiş qaz sızmalarının operativ şəkildə aradan qaldırılması, təbii qaz nəqlinin qış mövsümünə uyğun texnoloji rejimlə həyata keçirilməsi üçün qaztənzimləyici qurğuların tənzimlənməsi diqqət mərkəzində saxlanılmalıdır. Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə onlar ixtisas hazırlığına cəlb edilməlidir.

Qeyd olunub ki, rayon Yol Təmir İstismar İdarəsi avtomobil yollarında zəruri təmir-tikinti işlərini aparmalı, qış aylarında yolların qardan və buzdan vaxtında təmizlənməsi məqsədilə mövcud texnikalar saz vəziyyətə gətirilməli və onlar üçün zəruri ehtiyat hissələri yaradılmalı, qum ehtiyatı tədarük etməlidir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## Test imtahanları başa çatıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test Mərkəzində muxtar respublikanın dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanları keçirilib.*



Test imtahanlarında iştirak etmək üçün sənəd təqdim edən 101 nəfərdən 88-i iştirak edib, 84 müəllim keçid balını toplayıb. İmtahanların nəticələri gündəlik olaraq Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

Qeyd edək ki, müəssisələrdə müəllimlərin bilik və bacarıq səviyyəsinin test üsulu ilə müəyyənləşdirilib üzə çıxarılması, qiymətləndirmə aparılan müəllimlərin həftəlik dərs yükü normasının optimallaşdırılmasının, aylıq vəzifə maaşlarının artırılmasının və maddi rifahının yaxşılaşdırılmasının təmin edilməsi məqsədi daşıyır.

Xatırladaq ki, bu günədək Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 3 belə test imtahanı keçirilib, imtahanlarda 587 müəllim iştirak edib, onlardan 501-i uğur qazanıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

*Naxçıvanın ən qədim təsərrüfat sahələrindən biri də arıçılıqdır. Zəngin bitki örtüyü və təbii şərait yüksəkkeyfiyyətli bal istehsalına, göstərilən dövlət qayğısı və dəstəyi isə arıçılıq təsərrüfatlarının sayının ilbəil artmasına səbəb olmuşdur. Arıçılıq aqrar sektorun gəlirli sahəsi olmaqla, qida və müalicəvi xüsusiyyətlərə malik, ekoloji mühitə müsbət təsir edən təsərrüfat növüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın əsas məqsədi yerli və ənənəvi arı cinslərinin yetişdirilməsi, arı ailələrindən yüksək məhsul götürülməsi üçün köçürülmə ərazilərində zoobaytar qaydalarına əməl edilməsi, xəstəliklərə qarşı vaxtında mübarizə aparılması və məhsul istehsalının artırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsidir.*

*Dövlət proqramı icra olunur*

# Arıçılığın inkişafına dövlət dəstəyi davam etdirilir



Muxtar respublikada əhəmiyyətli təsərrüfat sahəsi olan arıçılığa göstərilən qayğının nəticəsidir ki, bu sahə yüksək inkişaf mərhələsinə qədəm qoymuş, arıçılıqla məşğul olmaq istəyən sahibkarlıq subyektlərinin sayı ildən-ilə çoxalmışdır. İkinci rübdə Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası davam etdirilmiş, arıçılığın inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Həmin dövrdə muxtar respublikada fəaliyyət göstərən 3 min 943 arıçı sahibkara məxsus 98 min 400 arı ailəsi qeydiyyata alınmış, hər arı ailəsi üçün 10 manat olmaqla, ümumilikdə, 984 min manat subsidiya arıçılara təqdim edilən plastik kartlar üzrə hesablara köçürülmüşdür. Həmçinin 1 hüquqi şəxsə məxsus arıçılıq məhsulu sertifikatlaşdırılmış, 5 arıçılıq təsərrüfatına 45 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir.

Arıçılığın yem bazasının müxtəlifliyi bu sahənin inkişafına təkan verən mühüm vasitələrdəndir. Dövlət proqramında da yaşıllaşdırma işlərində balyığma mənbəyi hesab olunan ağac və kol əkinlərinin genişləndirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. İkinci rübdə bu tapşırığın icrası diqqət mərkəzində olmuş, muxtar respublikada yeni salınan meyvə bağlarının 29,1 hektara yaxınını nektar və çiçək tozu ilə zəngin olan meyvə tingləri təşkil etmişdir.




Naxçıvanda arıçılığın inkişafını şərtləndirən amillərdən biri də yerli arı genofondunun mühafizəsi və arı xəstəliklərinin qarşısının alınmasıdır. Yerli genofondun qorunması, ilk növbədə, arıçılıq təsərrüfatlarının sayının hər mövsüm artırılmasından asılıdır. İkinci rübdə Sarı Qafqaz arı cinsinin Naxçıvan populyasiyasının qorunub saxlanılması məqsədilə 3 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Eyni zamanda 6 arıçılıq təsərrüfatının yaradılması və 1 arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir.

Arı xəstəlikləri arı ailələrini zəiflədən, bu sahədə məhsuldarlığı aşağı salan və nəticədə, arıçılığın inkişafına ziyan vuran mühüm faktordur. Bu xəstəliklərin qarşısının alınması üçün vaxtında analizlər aparılmalı, eləcə də aşkar edilən xəstəliklərin əhatə dairəsi genişlənmədən müalicəsi həyata keçirilməlidir. Aprel-iyun aylarında Dövlət proqramının icrası istiqamətində Amerika və Avropa çürüməsi xəstəliklərinə qarşı arıxanalardan 11 min 875 nümunə götürülərək yoxlanılmış, xəstəlik aşkar olunmamışdır. Eyni zamanda parazitar xəstəliklərdən olan varroatoz, akarapidoz, nozematoz xəstəliklərinə qarşı müayinələr aparılmış və təyinatı üzrə tədbirlər görülmüşdür.

Dövlət proqramında arıçılığın inkişafı məqsədilə arıçı sahibkarlarla maarifləndirici tədbirlərin keçirilməsi də nəzərdə tutulmuşdur. Maarifləndirmə arı ailələrinə mövcud qaydalara uyğun qulluq edilməsinə, bir zonadan digərinə mərhələli şəkildə köçürülməsinə, həmçinin balverən bitkilərin əkin sahələrinin genişləndirilməsinə və arı xəstəliklərinin vaxtında qarşısının alınması işinə müsbət təsir göstərir. İkinci rübdə bu məqsədlə görülən işlər davam etdirilmişdir. Şərur, Şahbuz, Kəngərli, Culfa və Ordubad rayonlarında maarifləndirici tədbirlər, iyunun 11-də isə Batabat yaylağında arıçı sahibkarlarla fərdi qaydada görüş keçirilmişdir. Bu dövrdə sahibkarların məlumatlandırılması məqsədilə 4 adda bukletlər dərc etdirilərək paylanılmış, Naxçıvan Dövlət Televiziyasında 3 veriliş efirə təqdim olunmuş, "Şərq qapısı" qəzetində 3 məqalə dərc edilmişdir.

*Dövlət proqramının bundan sonra da uğurla icrası Naxçıvan Muxtar Respublikasında əhalinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi və bu məhsulların ixracının həyata keçirilməsi istiqamətində yeni imkanlar yaradacaqdır.*

**"Şərq qapısı"**

# Payız-qış mövsümü ilə əlaqədar istixanalarda əkin işlərinə başlanılıb



Son illərdə muxtar respublikada aqrar sektora tətbiq edilən güzəştlər bu sahənin inkişafını stimullaşdırıb, innovativ texnologiyaların tətbiqi məhsuldarlığı artırmaqla yanaşı, torpaqlardan səmərəli istifadə olunmasına da şərait yaradıb. Xüsusilə əhalinin payız-qış mövsümündə meyvə-tərəvəz məhsullarına olan tələbatının yerli istehsal məhsulları ilə tam təmin edilməsində soyuducu anbarların və istixana komplekslərinin rolunu vurğulamaq lazımdır. Sahibkarlara göstərilən dövlət dəstəyi nəticəsində Naxçıvan şəhərində və rayonlarda müasir istixanalar, soyuducu anbarlar yaradılıb, məhsul bolluğu təmin olunub.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən payız-qış mövsümündə əhalinin tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə istixana fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərində maarifləndirici tədbirlər keçirilib, istixanalarda əkin işlərinin vaxtında başa çatdırılması tapşırılıb.

Əkin işlərini müəyyən edilmiş müddətdə başa çatdıran və dövlət dəstəyindən bəhrələnən sahibkarlıq subyektləri sırasında "Naxçıvan bağları" tərəvəz məhsulları istixana kompleksi xüsusi yerə və çəkiyə malikdir. 2013-cü ildən Naxçıvan şəhərində fəaliyyət göstərən kompleksdə Hollandiya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. 12 min kvadratmetr sahədə qurulan istixana kompleksində 2020-ci ilin payız-qış dövrü üçün əkin işləri aparılıb, 30 min pomidor şitilindən istifadə edilib. Hazırda istixana kompleksində daha məhsuldar və xəstəliklərə davamlı olan Xaçmaz sortu pomidoru yetişdirilir. Onlara lazımi aqrotexniki qulluq göstərilib, istehsal prosesində üzvi gübrədən istifadə edilib. Hazırda şitillər çiçək dövründədir. Yetişdirilən keyfiyyətli pomidor məhsulu artıq yaxın aylardan başlayaraq sifarişə uyğun olaraq 10, 15 və 20 kiloqramlıq karton taralarda topdansatış bazalarında, pərakəndə satış mağazalarında "Naxçıvan bağları" əmtəə nişanı ilə satışa çıxarılacaq. 12 nəfərin daimi işlə təmin olunduğu istixana kompleksində 100-120 ton məhsuldarlıq gözlənilir ki, bu da muxtar respublikada pomidora olan tələbatın mühüm bir hissəsini ödəyəcək.

Gələcəkdə kompleksin fəaliyyətinin genişləndirilməsi və tərəvəz məhsullarının istehsalının artırılması, eləcə də daxili tələbatı ödəməklə yanaşı, tərəvəz məhsullarının xarici bazarlara çıxarılması istiqamətində müəssisə tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Torpaqların monitorinqi aparılır

Muxtar respublikamızda torpaqların münbitlik xassələrini səciyyələndirən ayrı-ayrı göstəricilərdə baş verən dəyişikliklərin vaxtında aşkara çıxarılması üçün vaxtaşırı müşahidələrin aparılması diqqətdə saxlanılır. Torpaqların şorlaşma, şorakətləşmə, müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, bu cür ərazilərin müəyyənləşdirilməsi, xəritələşdirilməsi və yenidən əkin dövriyyəsinə qatılması ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən aid qurumlarla razılaşdırılmaqla müvafiq komissiya yaradılıb, torpaqların monitorinqinə başlanılıb.

Artıq komissiya tərəfindən Ordubad rayonu üzrə torpaq sahələrinin monitorinqi başa çatdırılıb, rayon üzrə 24,1 hektar şorlaşmış torpaq sahəsi müəyyən edilərək xəritələşdirilib.

Hazırda Babək və Culfa rayonlarında bu istiqamətdə işlər davam etdirilir. Şorlaşan, şorakətləşən, bataqlaşan, digər kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən torpaq sahələri müəyyənləşdirilir, torpaqların şorlaşmasının və bataqlaşmasının səbəbləri öyrənilir.

Muxtar respublika ərazisində aparılacaq monitorinqlərin yekununda komissiya tərəfindən hesabat hazırlanacaq, torpaqlarda baş vermiş dəyişikliklərin aradan qaldırılması üçün zəruri aqrotexniki və meliorativ tədbirlər müəyyənləşdiriləcək.

Qeyd edək ki, monitorinqlərin aparılmasına Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mütəxəssisləri cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*Ailə təsərrüfatlarımız*

# Toplanması çətin, faydaları isə saymaqla bitməyən giləmeyvə

*Kəndimizin yaxınlığından axan kiçik çayın kənarında çoxlu sayda böyürtkən kolları var. May ayının sonu çiçəkləyən, avqust ayında isə yetişən qapqara, şirin giləmeyvəni yığmaq kənd uşaqlarının əsas məşğuliyyətinə çevrilib. Kolun tikanları əllərinə batsa da, elə onu koldan dərib yemək uşaqları hədsiz sevindirir.*






İnsanların bu giləmeyvəni, xüsusilə səhər tezdən toplamalarının da səbəbi odur ki, həm sərin havada müxtəlif həşəratlardan qoruna, həm də lap təzəcə yetişmişlərini yığa bilirlər. Onu da deyim ki, böyürtkən toplamağa gedən balaca vedrəsini doldurmamış qayıtmaz. Qara rəngli böyürtkəndən dadlı mürəbbə, kompot, cem, qırmızısından isə mövsümündə ağız ləzzəti ilə yeyilən turşu hazırlayarlar. Beləcə, həm özləri istifadə edər, həm də qalanını satar, digərlərinin bu giləmeyvəyə olan tələbatını ödəyərlər. Böyürtkənin təzəsini, eləcə də mürəbbəsini uzaqda olan qohuma pay göndərmək ən əziz sovqat hesab edilir kəndimizdə. Amma yuxarıda da qeyd etdiyim kimi, onu toplamaq hər adamın işi deyil. C vitamini ilə zəngin olan meyvənin təzəsini xüsusi qablarda dondurucuda, hətta qışa da saxlamaq olar.

Muxtar respublikamızın, demək olar ki, hər bölgəsində rast gəlinən bu tikanlı, zərif kol bitkisinin insan sağlamlığına faydaları da çoxdur. Hətta böyürtkən kolları kənd yerlərində bir çox həyətyanı sahələrdə çəpər rolunu da oynayır. Təbiətin ayrılmaz hissəsi olan arılar isə yaz-yay aylarında onun çiçəklərindən çəkdikləri nektarla təmiz bal hasil edə bilir. Böyürtkənin yazda açan ağ çiçəkləri, yarpaqları, meyvəsi təbabətdə, eləcə də kulinariyada istifadə olunur. Giləmeyvənin tərkibi isə şəkər, üzvi turşular, müxtəlif vitaminlərlə zəngindir. Deyilənə görə, hələ çox qədimdə təbiblər böyürtkənin təzə yarpaqlarını əzərək onun ekstraktını dəri zədələnməsi, irinli yaralarda tətbiq ediblər. Yarpaqlarının və cavan zoğlarının həlimini və çayını angina və somatitdə məlhəm kimi, təzə və quru meyvələrinin həlim və yaxud dəmləməsini susuzluğa qarşı, eləcə də kəskin sətəlcəm xəstəliklərində məsləhət görürlər. Meyvələri, həmçinin mədə-bağırsağın fəaliyyətini tənzimləyir, həzmi yaxşılaşdırır, böyrək, qaraciyər xəstəlikləri zamanı müalicəvi təsir edir, onun tərkibindəki aktiv maddələr xərçəng hüceyrələrinin artmasının qarşısını alır. Bundan başqa, böyürtkənin yarpaqlarını və kal meyvələrini açıq, günəşli havada qurudub, çay kimi dəmləyərək uşaqlarda tez-tez baş verən qarın ağrılarına (ishala) qarşı antiseptik maddə kimi, qurudulmuş köklərini isə suda bişirib vərəm xəstəliyi əleyhinə dərman kimi istifadə edirlər.

Bu gün böyürtkəni toplayıb, qışa tədarük görən təsərrüfatçılarımız az deyil. Onlardan biri də Ordubad rayon sakini Natiqə Əliyevadır. Təsərrüfatçı deyir ki, böyürtkən çiçək açdıqdan, təxminən, bir ay sonra meyvəsi yetişir. Onu toplamaq səbir və səriştə tələb edir. Tikanları insanı incitsə də, toplamağına dəyər. Çünki, həqiqətən də, bu meyvə min bir dərdin dərmanıdır. Xüsusi qulluq tələb etməyən, Allahın insanlara bəxş etdiyi şəfalı nemətdir, bizə ancaq onun qədrini bilmək qalır, – deyir Natiqə xala. Zəhmətkeş müsahibim onu da əlavə edir ki, müxtəlif kəndlərə gedib, yol və çay kənarlarından böyürtkən yığıb gətirir, mürəbbəsini, kompotunu, cemini hazırlayır. Bu meyvənin mürəbbəsinin alıcısı daha çox olur. Çünki böyürtkən, xüsusilə də qışda soyuqdəyməyə qarşı ən təsirli vasitədir, immuniteti möhkəmləndirir.

Bu gün barlı-bərəkətli, hər neməti min bir dərdin dərmanı olan doğma yurdumuzda yetişən daha bir giləmeyvə haqqında məlumat verdik. Füsunkar təbiətə malik diyarımızın hər bir qarışı belə müalicəvi meyvə və giləmeyvələrlə, bitkilərlə zəngindir. Natiqə xalanın da dediyi kimi, bircə qalır onları görmək və bizə qarşılıqsız verilən, sağlamlığımız üçün də faydalı olan bu nemətlərin qədrini bilmək...

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

Turizm

# Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu



***Daxili turizmə diqqətlərin artdığı hazırkı şəraitdə yerli səyahət həvəskarlarımız da muxtar respublikamızın müxtəlif turizm-rekreasiya məkanlarına ciddi maraq göstərirlər. Builki turizm mövsümündə naxçıvanlıların asudə vaxtının mənalı keçməsi üçün çimərlikdən müalicə mərkəzlərinə, uca dağ yaylalarından müasir parklara, bütün dünyada məşhur olan tarixi yerlərdən ucqar dağ kəndlərinədək, demək olar ki, hər yerdə insanlara zəngin təəssürat vəd edən istirahət, əyləncə və tanışlıq məkanlarına səyahətlər üçün yeni fürsətlər yarandı. Bu dövrdə muxtar respublikamızda fəaliyyət göstərən turoperator və həvəskar turistlərin alternativ istiqamətlərə olan marağı bir sıra yeni turizm marşrutlarının da populyarlığını ortaya qoyur. Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu da bir sıra cazibədar xüsusiyyətlərinə görə belə turizm marşrutlarındandır.***

Hər il turizm mövsümündə, xüsusən qızmar yay günlərində Şahbuz dağlarına istirahət üçün gələnlərin sayında artım olur. Rayonun kəndlərində turistlərin yerləşdirilməsi üçün hosteltipli evlərin yaradılması, kənd infrastrukturunun buna çox əlverişli olması və şübhəsiz, buradakı bənzərsiz landşaft gözəllikləri ilə təbii-iqlim ehtiyatları buna təsir edən əsas amillərdəndir. Şahbuzun iri yaşayış məntəqələrindən olan Kükü kəndinə üz tutan qonaqların da əsas motivləri məhz bunlardır.

Naxçıvan şəhərindən, təxminən, 50, rayon mərkəzi Şahbuz şəhərindən 12 kilometr məsafədəki Kükü kəndi dəniz səviyyəsindən 1900-2100 metr yüksəklikdə, Naxçıvançayın ən böyük qollarından biri olan Küküçayın yatağında yerləşir. Bu kənd haqqında danışarkən bir çoxlarının nəzərində gursulu, bumbuz bulaqlar, sərt qayalar, yaşıl çəmənlər və bir də bal kimi şirin, dadlı alma sortlarının yetişdiyi bağlar canlanır. Bununla yanaşı, qışın mülayim, yayın da sərin olduğu Kükünün iqlim resursları da insanları bu gözəl kəndə cəlb edən əsas faktorlardandır. Münbit qara torpaq örtüyü və kristal kimi şirin su ehtiyatları bu kəndin ərazisində təkcə almanın deyil, istənilən meyvə və tərəvəzin, hətta yabanı pencərlərin də minerallarla zəngin və özünəməxsus dadlı-tamlı olmasına imkan verir. Xüsusən yayın bu isti günlərində Kükündə bal-qaymaq dadıb, oğlaq ətindən kabab çəkən qonaqlar təbiətin bu torpaqdan heç nəyi əsirgəmədiyinə bir daha inanırlar.

Kükü kəndindəki turizm cazibə elementləri arasında Dərələyəz silsiləsinin Küküdağ, Qanlıgöl və Keçəldağ, eləcə də Gurbulaq istiqamətləri daha çox diqqəti cəlb edir.



Belə ki, Küküyə gəlmiş turistlər buradakı kənd evlərindən birində qalmaq üçün yerləşdikdən sonra üç gün ərzində Qabaqlı, Gurbulaq və Qanlıgöl istiqamətlərində turlara çıxa bilərlər. Bu turlarda, əsasən, ekoturizm və ekstrim yürüş növü üzrə zəngin məzmunlu proqram hazırlamaq olar. Qabaqlı istiqamətində sərt qayalıq relyef, unikal biomüxtəliflik və herbari toplama, landşaft və canlı təbiət üzrə fotoovçuluq üçün əlverişli imkanlar vardır. Coğrafi mövqeyinə görə bu istiqamətdə turlar yay aylarında günün ikinci yarısı daha məqsədəuyğundur. Belə ki, yürüşə çıxmış turistlər ekstrim və yürüş təcrübəsi qazana, Kükü kəndinin Zəngəzur dağlarınadək uzanan panoramlı görüntüsünə tamaşa edə bilərlər.

Turizm marşrutunun əsas cazibə nöqtəsi olan Gurbulaq istiqamətində hərəkət edən turistlər üçün səhərin erkən saatlarında yola çıxmaq daha sərfəlidir. Kənddən, təxminən, 4 kilometr məsafədəki yolun bir hissəsini avtomobildən də istifadə edə bilən turistlər üçün Gurbulaq və ətrafının ecazkar mənzərələri, buradakı zəngin biomüxtəliflik, avqust ayının ortalarınadək təbii halda qalan qar, bumbuz bulaqlar, az qala dəqiqədə 1500 litrədək debiti olan Gurbulağın qaynayan mənbəyi və ondan bir az aşağıdakı möhtəşəm şəlaləsi, qırmızı rəngli qayalıqlardan süzülüb gələn Qırxbulağın görüntüsü çox cazibədardır. Gurbulaq və onun ətrafı turistlərə yay aylarında, xüsusən iyul və avqust aylarında üç fəsli bir arada yaşamağın zövqünü yaşadan unikal yerlərdəndir. Belə ki, avqust ayında buradakı dərələrin quzeyində qalmış qarın altında təzəcə boy atan yarpız, cacıq, baldırğan dadmaq olar. Nahar yeməyini və səyyar çadırlarını hazır götürmüş turistlər bütün gününü burada keçirib, Qaladibində gecələyə, buradakı qədim insan məskəni ilə tanış ola, vəhşi arıların balından toplamaq üçün unikal ekstrim təcrübəsi də qazana bilərlər.



Kükündən Qanlıgölədək, təxminən, 7 kilometr məsafə vardır. Bu yolun, demək olar ki, tamamını avtomobillərlə gedən turistlər istəyə görə piyada da hərəkət edə bilərlər. Günəşin mövqeyinə görə səhərin gec saatlarında Qanlıgölə doğru səfərə çıxmaq daha məqsədəuyğundur. Qanlıgölə gələn turistlər yolüstü, qarşı tərəfdəki Qabaqlı massivinə və 3120 metr yüksəklikdəki Küküdağın tam panoramlı görüntüsünə tamaşa edə bilərlər. Turistlər yolüstü bir zamanlar yurd yeri olmuş və dəniz səviyyəsindən 2500 metrədək hündürlükdə yerləşən qədim Zırnel kəndinə uzaqdan tamaşa edə, minerallarla zəngin bulaqlardan su içə bilərlər. Qanlıgölə çatmış turistlərə bildirilməlidir ki, bu göl tamamən qar və bulaq sularından qidalandığı üçün zamanla onun lillə dolması baş verməmişdir və gölün suyu tam şəffafdır. Yayın son günlərində, suyun qıt vaxtlarında suvarma üçün də istifadə olunan bir milyon kubmetr tutumu olan bu gölün əsas bəndi, təxminən, 150 il əvvəl tikilmiş və haliyədə də qalmaqdadır. Güman ki, keçmişdə burada boğulma halları olduğu üçün gölün adı da buradan qalıb. Qanlıgöl və ətrafı Naxçıvanın qədim yurd yerlərindəndir. Burada elə "Yurd" adlandırılan böyük bir ərazidə bolsulu bir bulaqla yanaşı, qədim insan məskənlərinə xas olan maddi mədəniyyət nümunələri, müsəlman məzarlığı, döyüşçü qəbirləri və yaşayış yerlərinin izləri qalmaqdadır. Tarixi mənbələrə əsasən dəniz səviyyəsindən, təxminən, 3 min metr yüksəklikdəki bu ərazilər keçmişdə yaşayış məskəni olub, bəlkə də, döyüşlərə şahidlik edib.

Qanlıgölə gəlmiş turistlər burada keçirilən vaxt ərzində yaylağa köçmüş çobanların həyat və məişətilə tanış olmaq, onların mətbəxindən, xüsusən təndir kababı və ocaqda qaynadılmış limonlu kəklikotu çayından dadmaq, çadırlarda dincəlmək imkanı qazana bilərlər. Daha sonra şimal-şərqdə 3115 metr hündürlüyü olan Keçəldağ istiqamətində hərəkət edən turistlərə gursulu Pünhanbulağın və Südlübulağın ağappaq süd kimi suyundan içmək və uzaqdan Naxçıvanın turizm incisi Batabat meşələrinə quşbaxışı nəzər salmaq üçün Hörgülüyədək yürüş etmək mümkündür.

*Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutu muxtar respublikamızın perspektivli turizm marşrutlarındandır. Bu marşrutun test olunması və gələcəkdə populyarlıq qazanması bu istiqamətdə turizmin daha da inkişaf etməsinə imkan yaradacaq.*





✍ Əli CABBAROV

## Komandirlər arasında təcrübə mübadiləsi



*Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri çərçivəsində iki qardaş ölkənin bölmələrinin komandirləri arasında təcrübə mübadiləsi aparılır.*

Təlimdə komandir heyətinin yaranmış taktiki şəraitə uyğun qısa müddətdə qərar qəbul edib yuxarı qərargaha məruzə etməsi, tabelikdə olanlara çatdırması, döyüşün təşkili üzrə bacarıq və vərdişlərinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində keçirilən məşqlər davam edir.

Məşqlər zamanı komandirlərin ərazinin relyefindən faydalanaraq bölmələrin gizli hərəkətini təmin etməsi, məhdud şəraitdə atəşi və bölmələri idarə sualları işlənilir.

**Nəriman NƏCƏFOV**

## Növbəti imtahanlar keçirilib



Dövlət İmtahan Mərkəzi avqustun 27-də Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ikinci imtahan, Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V sinfinə, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul imtahanları və "SABAH" qruplarına tələbə seçimi müsabiqəsinin ikinci mərhələsi üzrə test imtahanı keçirib. Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Lənkəran və Xaçmazda keçirilən imtahanlarda, ümumilikdə, 4606 nəfər biliyini sınayıb. İmtahanların idarə olunmasına 22 imtahan binası, 336 imtahan zalı, 22 ümumi imtahan rəhbəri, 56 imtahan rəhbəri, 437 nəzarətçi-müəllim, 44 buraxılış rejimi əməkdaşı, 22 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə, 3 zalda keçirilib. 18 nəfərin iştirak etdiyi imtahanın təşkili üçün 1 nəfər imtahan rəhbəri və 4 nəfər nəzarətçi cəlb edilib.

"SABAH" qruplarına test imtahanında iştirakçılara 25-i məntiqi təfəkkür, 25-i isə xarici dil olmaqla, 50 sual təqdim olunub. Sualların cavablandırılmasına 1 saat 30 dəqiqə vaxt verilib. Azərbaycan dili imtahanında isə 5 nəfər abituriyent iştirak edib və onlara 30 test tapşırığı təqdim edilib, imtahan müddəti 45 dəqiqə davam edib. Hər iki imtahanda doğru cavablar 1 balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir etmir.

İmtahanların nəticələri yaxın 3 gün ərzində elan olunacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Maliyyə və mühasibat uçotu sahəsində çalışan işçilər üçün təlim

***Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində start verilən növbəti təlimə Təhsil Nazirliyinin tabeliyində olan təşkilatların maliyyə və mühasibat uçotu sahəsində çalışan 11 nəfər işçisi cəlb olunub.***

Mərkəzin tədris zalında iki moduldan ibarət olmaqla, iki gün müddətində davam edəcək təlimin əsas məqsədi mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi və biliklərinin qiymətləndirilməsindən ibarətdir.



Tədbirdə mərkəzin direktoru Mehriban İmanova iştirakçılara təlimin məqsədi, keçirilməsinin zəruriliyi və gündəlik barədə məlumat verib, təlimin ilk modulu – "Mühasibat hesabları, maliyyə bərabərliyi və ikili yazılış sistemi" mövzusunda çıxış edib. Çıxışda mühasibat uçotunun mahiyyəti və funksiyaları, baş mühasibin vəzifələri, balansda baş verən dəyişmə tipləri, yeni hesablar planının və mühasibat hesablarının quruluşu, maliyyə bərabərliyi düsturunun mahiyyəti, mühasibat uçotunda ikitərəfli yazılışın üsulu və digər mövzulara bağlı slaydlar vasitəsilə iştirakçılara ətraflı məlumat verilib.

Qeyd edək ki, ikinci gün keçiriləcək təlim Maliyyə Nazirliyi Aparatının baş məsləhətçi-mühasibi Məmmədnağı Əkbərovun təqdimatı ilə "Maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun tərtib və təqdim edilməsi" mövzusunu əhatə edəcək. Mövzuya müvafiq olaraq müəssisələrdə aparılmış əməliyyatların mühasibat uçotu reyestrində əks etdirilməsi, memorial orderlərin yazılması, dövriyyə kitablarının işlənilməsi və maliyyə hesabatlarının beynəlxalq mühasibat uçotu standartları əsasında hazırlanması barədə məlumat veriləcək.

Təlimin sonunda iştirakçıların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi üçün test imtahanı keçiriləcək, müvəffəqiyyət əldə edənlərə Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim olunacaq, digər iştirakçıların növbəti təlimlərə cəlb olunması təmin ediləcək.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

***Sənətimlə bağlı çalışdığım Xan Sarayı Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin ekspozisiyalarındakı rəsm əsərlərinin elmi təsvirləri ilə yaxından tanış olmaq, müəllifləri haqqında məlumatlar əldə etmək istərkən rəssam Rəfael Qədimovun əsərləri diqqətimi cəlb etdi. Möminə xatın türbə muzeyinin ekspozisiyasındakı "Möminə xatın" əsəri Azərbaycan qadınının zəkasını, qüdrətini, həyatımızdakı, cəmiyyətimizdəki və dövlətçilik tariximizdəki danılmaz mövqeyini özündə ehtiva etməklə ekspozisiyaya möhtəşəmlik və estetik gözəllik bəxş edir. Kətan üzərində yağlı boya ilə işlənən əsər elə ilk baxışdan hər bir tamaşaçını özünəməxsusluğu ilə cəlb edə biləcək potensiala malikdir. Milli geyimdə təsvir olunmuş Möminə xatının timsalında müəllif Azərbaycan qadınının gözəlliyini böyük ustalıqla təsvir edib.***



# Rənglər dünyasında yaşayan ömür

Yaradıcılığı ilə sənətsevərlərin qəlbini oxşayan, mənəvi aləminə sirayət etməyi bacaran, Xan sarayının və digər muzeylərin ekspozisiyalarının zənginləşməsində böyük rolu olan tarixi şəxsiyyətlərdən Atabəy Şəmsəddin Eldənizin, II Kalbalı xanın, Hüseyn xan Naxçıvanskinin, Cəmşid Naxçıvanskinin, Qönçəbəyimin portretlərini yağlı boya ilə kətan üzərinə köçürən rəssam Rəfael Qədimov Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Kiçik yaşlardan təsviri sənətə, rənglər aləminə maraq göstərməsi ailəsindən qaynaqlanıb. Orta məktəbdə oxuduğu illərdə atası Azərbaycanın tanınmış rəssamlarından hesab olunan Sabir Qədimovun bu sənətlə bağlı fikirlərindən ruhlanan Rəfael uşaqlığından yaşına uyğun eskizlər işləyər, rəsmlər çəkərmiş.

XX əsr fransız filosofu Jan Pol Sartr deyir ki, istedad insana verilmiş borcdur. İnsanın sonrakı həyatı onun həmin borca layiq olub-olmadığını müəyyən edir. Zaman keçdikcə rəssamlığa həvəsi artan Rəfael Qədimov da tezliklə Uca Yaradan tərəfindən bəxş olunan bu borca layiq olduğunu sübut edir. Öz üzərində ciddi çalışan Rəfael 1984-cü ildə Əzim Əzimzadə adına Bakı Dövlət Rəssamlıq Texnikumuna daxil olur, bu təhsil ocağını uğurla başa vurur. Naxçıvanın füsunkar təbiətini, zəhmətkeş insanlarını, coşqun çaylarını, vüqarlı dağlarını əsərlərində böyük ustalıqla tərənnüm edən Rəfael Qədimov 1990-cı ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilir.

1990-cı ildən Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında butafor dekorçu rəssam kimi işləməyə başlayan Rəfael sonralar kukla rəssamı, quruluşçu rəssam kimi fəaliyyətini davam etdirir, "Meşə macəraları", "Əläddinin sehrli çırağı", "Arşın mal alan", "Buratino", "Çay dəstgahı" kimi tamaşalarda dəst-xəttini ortaya qoyan sənətkar hazırda həmin teatrda baş rəssam kimi fəaliyyət göstərir. Onunla söhbətim emalatxanasında baş tutur. Rəfael Qədimov söhbət zamanı bildirir ki, gözümü açandan atamın molbert qarşısında kətan üzərində işləməyinin, bir-birindən fərqli obrazları canlandırmağının şahidi olmuşam.

"İnsan dünyaya rəssam olaraq gəlir, yoxsa bu sənətə maraq nəticəsində yiyələnir?" sualı məni hədsiz düşündürdüyündən söhbətdə ona cavab axtarmağa çalışıram. O, sualımı xoş təbəssümlə qarşılayaraq belə cavab verir:

– Ümumiyyətlə, təsviri sənət geniş anlayışdır, qarşıya çıxan hər hansı bir mənzərəni kətan üzərinə köçürmək, real həyat həqiqətlərini bədii təsvirə gətirmək bu sənətlə məşğul olanlardan xüsusi qabiliyyət və bacarıq tələb edir. Bəstəkar bəstələdiyi musiqi ilə insanları düşündürüb, duyğulara necə qərq edirsə, rəssam da yaratdığı əsərdəki elementləri elə işləməli, naxışları vurmalıdır ki, rəsm tamaşaçını ilk baxışdan özünə cəlb edə bilsin. Həmçinin öyrənməkdən usanmamalı, bilgi və qabiliyyətini təkmilləşdirmək üçün mütəmadi olaraq öz üzərində çalışmalıdır.

"Hazırda gəncliyə, yaradıcı insanlara muxtar respublikamızda xüsusi diqqət və qayğı göstərilir, onların inkişafı üçün əlverişli şərait yaradılır, xüsusilə rəssamlarımızın əsərləri sərgilənir, yubileyləri və yaradıcılıq tədbirləri keçirilir, onlara mükafatlar verilir, fəxri adlara layiq görülürlər", – deyən Rəfael Qədimov vurğulayır ki, bu gün dövlətimizin qabiliyyəti olan hər kəsə geniş imkanlar yaratması, sənət sahiblərini bütün sahələrdə dəstəkləməsi böyük ümidlərə yol açır. Ümid demişkən, bir əsərim yadıma düşdü: "Ümidimiz sənədir". Hər bir yaradıcı insana əsərlərinin hamısı necə əzizdirsə, mənim üçün də elədir. Ancaq bu əsərimə xüsusi münasibət bəsləməyim təəccüblü deyil. Ötən əsrin 90-cı illərində biz orta nəsil çox əziyyətlərə qatlaşdıq. Çörək növbəsində durduğumuz, işıq üzünə həsrət qaldığımız qaranlıq gecələrdə, soyuqdan nəfəsimizlə əlimizi isitdiyimiz qış aylarında hamı kimi, mənim də ümidim xalqımızı nicat yoluna çıxaracaq dahi şəxsiyyətə – ümummilli liderimiz Heydər Əliyevə idi. Məhz əsəri belə adlandırmağım da bununla bağlıdır.

Rəfael müəllim hazırda məşğul olduğu teatr rəssamlığı barədə də fikirlərini bölüşərək deyir ki, kukla teatrında çalışanların işi, sözün həqiqi mənasında, çətindir. Çünki balacaları real dünyadan qoparıb nağıllar aləminə səyahətə aparmaq böyük məharət tələb edir. Elə teatr rəssamının da üzərinə böyük məsuliyyət düşür, çünki o tərtibat verdiyi əsərlərdə tamaşaların mahiyyətinə dərindən nüfuz etməyi, eskizlərdə personajların zahiri görkəmini, mənəvi aləmini üzə çıxarmağı bacarmalıdır.

*Əsl rəssam əsərlərində Vətəninə, xalqına xas xüsusiyyətləri fırçanın gücü ilə nümayiş etdirərək həm də gələcək üçün mənəvi miras qoymağı bacarmalıdır. Bu gün Xan sarayında, Möminə xatın türbəsində, muxtar respublikamızın digər muzeylərində belə eksponatlar, dəyərli rəsm əsərləri yüzlərlədir. Təqdirəlayiq haldır ki, bu sırada Rəfael Qədimovun da özünəməxsusluğu ilə seçilən əsərləri yer alıb...*

**Cəlal RZAYEV**
***"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin tərtibatçı-rəssamı***

*Yeni nəşrlər*

## Etnoqrafiya və arxeologiya sahəsinə dəyərli töhfə

### Mərhum tədqiqatçı-jurnalistin iki yeni kitabı çapdan çıxıb

*Bu günlərdə "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyində 8 il "Şərqin səhəri" qəzetində məsul katib vəzifəsində işləmiş mərhum tədqiqatçı-jurnalist Zaleh Novruzovun "Etnoqrafik yaddaşımızdan" və "2010-2018-ci illərdə arxeoloji tapıntılar" kitabları işıq üzü görüb.*

Zaleh Novruzov ixtisasca coğrafiyaçı olsa da, hər kəs onu Naxçıvan etnoqrafiyası və arxeologiyası ilə bağlı yazıların müəllifi kimi tanıdı. Qədim diyarımızın hər dağına, daşına, qayasına yaxşı bələd olan Zaleh müəllim 2010-cu ildən etibarən AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası və Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birlikdə aparılan qazıntı işlərində yaxından iştirak edirdi. Bu dövrdə tədqiqatçı elmə məlum olmayan Naxçıvan, eləcə də ölkə tarixşünaslığı üçün mühüm əhəmiyyət kəsb edən bir neçə Eneolit dövrünə aid yaşayış yeri aşkarlamışdı. Sonradan həmin yaşayış yerləri qeydə alınaraq tədqiqatlara cəlb olunmuşdu. Məlumat üçün deyək ki, Zaleh Novruzovun "2010-2018-ci illərdə arxeoloji tapıntılar" kitabında 42 qədim yaşayış yeri barədə yazıya yer verilib və arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi mədəniyyət nümunələrinin şəkilləri oxuculara təqdim edilib.




Kitabda vaxtilə muxtar respublikanın Şahbuz və Culfa rayonlarında mövcud olmuş, hazırda passiv fonda keçmiş kəndlər barədə də yazılara yer verilib. Buradan aydın olur ki, müəllif uzun illər bu istiqamətdə də tədqiqatlar aparıb, yaşlı sakinlərlə həmsöhbət olub, arxiv sənədlərinə müraciət edib.

Zaleh Novruzovun "Etnoqrafik yaddaşımızdan (Naxçıvan materialları əsasında)" kitabında müəllifin 2017-2020-ci illərdə "Nuhçıxan" İnformasiya Agentliyi, "Şərq qapısı" və "Şərqin səhəri" qəzetlərində oxuculara təqdim etdiyi 54 məqalə yer alıb. Məqalələr, bütövlükdə, milli-mənəvi dəyərlərin öyrənilməsinə və təbliğinə həsr edilib. Kitabın ön sözünün müəllifi, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yazır: "Məlumdur ki, milli-mənəvi dəyərlər minilliklər ərzində xalqımızın təsərrüfat həyatında və məişətində mühüm yer tutmuş, cilalanaraq günümüzədək gəlib çatmışdır. Lakin müəllifin də qeyd etdiyi kimi, bir sıra adət-ənənə, inam, mərasim, məişət əşyaları, yemək nümunələri, çəki və ölçü vahidləri gənc nəsil tərəfindən unudulmuşdur. Ona görə də onların tədqiqinə və öyrənilməsinə ehtiyac vardır. Bu mənada, Zaleh Novruzovun "Etnoqrafik yaddaşımızdan" kitabı gərəkli nəşrdir".

Qeyd edək ki, kitabda Naxçıvanın müxtəlif bölgələrində xalq təqviminə əsasən qeyd olunan ayin və mərasimlərə aydınlıq gətirilir, çərşənbələrin mahiyyəti, yaranması, fəsillərin bu təqvimdəki yeri və rolu izah olunur. Yeni nəşrdə Naxçıvan mətbəxindən incilərə də yer verilib. Süd məhsullarının, qovurmanın hazırlanma qaydaları, etnoqrafik yaddaşımızda yaşayan yaz və qış yeməkləri barədə oxucuya məlumat çatdırılır. Müəllif fikirlərini təsdiq etmək üçün bir sıra ciddi tədqiqat əsərlərinə, xüsusilə çoxcildlik "Azərbaycan etnoqrafiyası" və görkəmli etnoqraflardan Hacı Qadir Qədirzadənin, Teymur Bünyadovun, Bəhlul Abdullanın, Qəmərşah Cavadovun tədqiqatlarına istinad edir. "Etnoqrafik yaddaşımızdan" kitabında da mövzu ilə bağlı şəkillərə geniş yer verilib.

Hər iki kitab arxeologiya və etnoqrafiya sahəsində tədqiqat aparan elm adamları, ziyalılar və ali təhsil müəssisələrinin tələbələri üçün nəzərdə tutulub.

***P.S.** **Tale elə gətirdi ki, yeni nəşrləri görmək müəllifə qismət olmadı. Amma Naxçıvanın zəngin etnoqrafiyası və arxeologiyası ilə bağlı yazıların yer aldığı kitablar muxtar diyarımız üçün hər zaman aktual, dəyərli olacaq.***

**Muxtar RZAZADƏ**

## Bilik yarışı keçirilib

*Naxçıvan Şəhər Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gənclər arasında "Yaşa və öyrən – II" intellektual bilik yarışı keçirilib.*

Bilik yarışı gənclərin hazırlıq səviyyəsinin artırılması, cəld və analitik düşünmə bacarığının inkişaf etdirilməsi, intellektual yarışlarda iştirak səriştələrini və gənclərin müasir dünyagörüşünü, habelə gənclər arasında yoldaşlıq münasibətləri və komanda ruhunu formalaşdırmaq məqsədi daşıyır. Yarışa nazirliyin Gənclər Birliyinin "Qrifindor", Şərur Rayon Gənclər Birliyinin "Arpaçay" və "Oğlanqala", Babək Rayon Gənclər Birliyinin "Ulduzlar", Ordubad Rayon Gənclər Birliyinin "Dübəndi", Culfa Rayon Gənclər Birliyinin "Darıdağ" və "Əlincə", Kəngərli Rayon Gənclər Birliyinin "Herodot" və Şahbuz Rayon Gənclər Birliyinin "Xudafərin" komandaları olmaqla, cəmi 9 komanda qatılıb. "Triada", "Esse" və "Elimination" turlarından ibarət olan yarışın sonunda "Oğlanqala" I, "Əlincə" II, "Dübəndi" isə III yerin qalibi olub. Qalib komandalar diplomlarla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən aparılan notariat hərəkətləri hansılardır?*

**Cavab:** Notariat ofisləri olmayan yaşayış məntəqələrində müvafiq icra hakimiyyəti orqanları aşağıdakı notariat hərəkətlərini aparırlar:

– miras əmlakın mühafizəsi üçün tədbirlər görürlər;

– vəsiyyətnamələri təsdiq edirlər;

– əmlakdan istifadə edilməsi və ona sərəncam verilməsi barədə, avtomaşınların müddətli istifadəyə verilməsinə dair etibarnamələr istisna olmaqla, etibarnamələri təsdiq edirlər;

– sənədlərdən surət və çıxarışların düzgünlüyünü təsdiq edirlər;

– sənədlərdəki imzanın həqiqiliyini təsdiq edirlər.

– sahəsi beş hektardan çox təşkil etməyən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin bir ildən artıq olmayan müddətə icarəyə və istifadəyə verilməsi barədə müqavilələri, habelə xüsusi mülkiyyətdə olan həmin torpaq sahələrinin iki ildən artıq olmayan müddətə icarəyə və istifadəyə verilməsinə dair etibarnamələri təsdiq edirlər.

***Kəngərli Rayon Dövlət Notariat Ofisi***

## Naxçıvan şəhəri və rayon mərkəzlərində keçiriləcək məktəbli yarmarkaları ilə bağlı elan

Muxtar respublika əhalisini sentyabr ayının 1-dən 15-dək Naxçıvan şəhəri, Xətai küçəsindəki Mərkəzi bazarda və rayon mərkəzlərində keçiriləcək məktəbli yarmarkalarına dəvət edirik.

Məktəbli yarmarkaları hər gün saat $9^{00}$-dan $14^{00}$-dək əhaliyə xidmət göstərəcəkdir. Yarmarkada əhaliyə münasib qiymətlərlə yüksək keyfiyyətdə xüsusi məktəbli geyim və idman formaları, ayaqqabı və məktəbli ləvazimatları təklif olunacaq.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Naxçıvan şəhəri, Atatürk küçəsi 49-da yaşamış Allahverdiyev Əbdüləli Məhərrəm oğlunun adına olan 3788 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Ülvi Yaqub oğlunun adına olan 0800220602 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 635